DÖVLƏT və DİN

İctimai fikir toplusu

• NOYABR - DEKABR • 2010 •

BU SAYIMIZDA

RƏSMİ GUŞƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki 5

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev
Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şamaxı Cümə məscidində aparılan
bərpa və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur 6

İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad
Təzəpir məscid kompleksi ilə tanış olmuşdur 9

CƏMİYYƏT VƏ DİN

Salman Rzayev - İnsan - ruh, can və bədən 11
Гасанага Мамедли - Проблемы философского религиоведения 19
Radif Mustafayev - Dini dünyagörüşün həmenerji (sinerji)
yaratmaq imkanı və İslamda həmrəylik məsələsi 31
Elvüsal Məmmədov - Məşşai filosofları İbn Miskəveyh, Sicistani və
Bətəlyövsiyə görə din-fəlsəfə münasibətləri 42
Tural Əliyev - Nizamülmülkün «Siyasətnamə» əsərində
dövlət-din münasibətlərinə dair 48
Rahil Nəcəfov - Azərbaycan fəlsəfə tarixində irrasional idrak
nəzəriyyəsinin bəzi tarixi - qneseoloji aspektləri 53
İlqar İsmayılzadə - Dinsizliyə yönəlmə amilləri. 63
İradə Zərqan - Gender məsələsi: ənənəvi problemlərin müasir həllinə dair 68
Zəhra Moin Həsənqızı - Deviantizmin mahiyyəti və bəzi
problemlərin həllində din amili 76
Söhrab Məhərrəmov - Müasir dövrdə dini şüurda dəyişmələr: fəlsəfi təhlil. 82
Mehriban Qasımova - Fəlsəfi və psixoloji perspektivə görə
ölümsüzlük düşüncəsi 90
Emil Rəhimov - Dinin cəmiyyətdə rolu 97
Həmid Məhəmmədi - Şəxsiyyətin sosiallaşmasında dinin rolu 102

İSLAM HƏQİQƏTLƏRİ

Vasif Sadıqlı - Mələk Cəbrail 107
Faizə Müslihi - Məsrəf və onun tənzimlənməsi 113
Mahir Qəniyev - Quran təfsirinin mənbələri. 120
Əsgər Cəlili - İslam hüququnda «həbs» və «cəza» anlayışları 129
Sadiq Mirzəyev - İslam - insanlığa biçilmiş dəyər 133
Faiq Əhmədzadə - Quran ecazkarlığının təbiət elmlərilə əlaqəsi 138

ABİDƏLƏR

Sənan İbrahimov - Yaxın Şərqdə Budda mənbələri 142
Əfqan Şəfiyev - Azərbaycan xalqının daş yaddaşı: bütlər 147
Şamil Nəcəfov - Daşla bağlı ayinlər və dəfn adətləri 156

ƏSRLƏR, ŞƏXSİYYƏTLƏR

Səbuhi İbrahimov - Suli Fəqih yaradıcılığında «Yusif və Züleyxa» əsərinin leksik-paleoqrafik xüsusiyyətləri 165
Ceyhun Məmmədov - «Richanul-kəffə fi bəyan nubzətin min əxbər əhlis-suffə» əsərinin elmi-paleoqrafik xüsusiyyətləri 169
Ülviyyə Səlimbəyova - Nəsimi poeziyasında Qurani-Kərimin batini şərhi 175
Namiq Zeynəddin - Məhəmməd İqbalın həyat və yaradıcılığı 183
Vüqar Zifəroğlu - Səlahəddin Əyyubi. 188
Əlhəddin Cekli və Tərxan Paşazadə - Həsən Rüşdiyyə. 197

TARİXƏ PƏNCƏRƏ

Musa Quluzadə - Dünya müsəlmanlarının birliyində beynəlxalq İslam təşkilatlarının rolu 205
Feyruz Bağırov - Naxçıvan İslam sivilizasiyasının elm və mədəniyyət mərkəzlərindən biri kimi 213

DİNLƏR, TƏRİQƏTLƏR, CƏRƏYANLAR VƏ TƏLİMLƏR

Məhəmmədrza Zakir Abbasəli - Xristianlıq şəriətinə dair 222
Ruhəngiz Kərimli - Şumer dini 229

İZAHLI LÜĞƏT

Dini terminlərin izahı 238

İCMA SİYAHILARI

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş dini icmaların siyahısı 252



NAXÇIVAN İSLAM SİVİLİZASİYASININ ELM VƏ MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

FEYRUZ BAĞIROV,
Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Elmi-Metodik Mərkəzinin şöbə müdiri

Zəngin tarixi keçmişə malik bir sıra Azərbaycan şəhərləri bütün dünya, o cümlədən İslam sivilizasiyası, Şərq dünyası və region üçün inzibati mərkəz, elm və mədəniyyət ocağı olmuşdur.

Belə qədim şəhərlərdən olan Naxçıvan İslam və bəşər sivilizasiyasına elm, incəsənət, ədəbiyyat sahəsində xüsusi töhfələr bəxş etmişdir. Bu gün də öz qədim idarəçilik, elm və mədəniyyət ənənələrini qoruyan Naxçıvan şəhərində zəngin və qədim əlyazmalar saxlanılan muzey, kitabxana, arxeoloji abidələr, təhsil müəssisələri, elmi-tədqiqat mərkəzləri, habelə beynəlxalq tədbirlərin keçirilməsi üçün mədəniyyət qurumları mövcuddur.

Naxçıvan Azərbaycanın və Şərqin ən qədim yaşayış məskənlərindən olaraq əhəmiyyətli məntəqələrindəndir. Bu ərazidə e. ə. XIV minillikdə mədəni yaşayış yerləri olmuşdur. Həmin yerlər II Kültəpə, Govurqala, Qarabağlar, Oğlanqala, Plovtəpə, Qazançıqala və sairədir. Bu ərazidən tapılmış və üzərlərində dövrün dini-mifoloji təsvirlərilə zəngin boyalı saxsı qabların var-



lığı Tunc dövründə mədəni-məişət işlərinin yüksək səviyyədə olduğunu sübut edir (1).

Naxçıvan şəhəri isə tarix boyu Azərbaycan ərazisində mövcud olmuş bütün dövlətlərin - Manna, Midiya və Albaniya, habelə Əhəməni və Sasani imperiyaları, Ərəb xilafəti, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər dövlətinin, sonradan isə Rusiya imperiyasının tərkibində iqtisadi, inzibati, hərbi və mədəni mərkəzlərdən biri olmuşdur.

Xilafət dövründə ərəb əmirlərinin əsas iqamətgahlarından olan Nuh yurdu Naxçıvanın (Nəşəvi) inzibati və hərbi mərkəz kimi regionda nüfuzu artmağa başlayır. X əsrdən başlayaraq bir-birinin ardınca Salarilər, Sacilər və Rəvvadilər dövlətinin tərkibində olan şəhər XII əsrin 30-70-ci illərində Azərbaycan Eldənizlər dövlətinin paytaxtı olur. Bu dövrdən etibarən bütün İslam dünyasında olduğu kimi Naxçıvanın da intibah dövrü başlayır. Dövrün görkəmli sənətkarları, alimləri burada toplanmışdı. Nəşəvidən (Naxçıvandan) bir çox elm, mədəniyyət və din xadimləri çıxmışdır. Onlardan həkim və şair Əkmələddin Naxçıvani, memarlardan Məsud Əmirəddin Naxçıvani və Əcəmi Əbubəkr Naxçıvani, nəqqaş Osman ibn Səlman Naxçıvani, təbib Nəcməddin Əhməd Naxçıvani, filosof Həsən ibn Ömər Naxçıvani və başqalarını göstərmək olar.

Orta əsr Naxçıvan (Nəşəvi) şəhəri Böyük İpək Yolunun üzərində yerləşirdi. Regional tranzit ticarət yolları da bu şəhərdə birləşirdi. Naxçıvanın bu cür əlverişli mövqeyi onun inkişafı ilə yanaşı, strateji əhəmiyyətini də göstərir. Şəhər Şərqin siyasi-iqtisadi, mədəni proseslərinin mərkəzinə çevrilir. 1221-ci ildə monqolların hücumu nəticəsində dağıdılan şəhər Qazan xanın hakimiyyəti dövründə yenidən bərpa olunmağa başlayır. Sonrakı dövrlərdə şəhər Toxtamış və Teymur tərəfindən yenidən dağıntılara məruz qalır. Daha sonrakı dövrlərdə Ağqoyunlu, Qaraqoyunlu və Səfəvi dövlətlərinin, Osmanlı imperiyasının tərkibinə daxil olur. Naxçıvan xanlığı 1827-ci ildə Rusiya imperiyası tərəfindən işğal edilməndən sonra şəhər bu regionda yaradılan Naxçıvan vilayətinin və Naxçıvan qəzasının mərkəzi olur.

Bütün bu tarixi proseslər Naxçıvan şəhərinin hazırda dövlətçilik, iqtisadi-sosial mərkəz kimi təcrübəsini göstərir. Müharibələrə, dağıntılara baxmayaraq, müasir şəhərdə qədim sivilizasiyanın izlərini əks etdirən memarlıq abidələri, qədim şəhərin qalıqları, İslam dininə aid ziyarətgahlar indi də qorunur.

Ordubadın Gəmiqaya yaylasında qədim insanların yaşayış məskənlərini bildirən petroqliflər (qaya rəsmləri) vardır. Son illərdə Naxçıvan MR Ali Məclisinin Sərəncamı ilə Gəmiqaya petroqlifləri elmi şəkildə öyrənilməyə başlanmış, AMEA-nın Naxçıvan Bölməsinin tarixçiləri petroqliflərin yazılma tarixini araşdırırlar. Bu tədqiqatlar başa çatdıqdan sonra elmi yeniliklər Həzrət Nuh peyğəmbərin (ə) gəmisinin yeri və məzarı ilə əlaqədar dünya alimləri üçün bir sıra qaranlıq və mübahisəli məsələləri aydınlaşdırmağa kömək edəcək.

Azərbaycanlı tədqiqatçıların *(Y.Səfərov, Ə. Hüseyni və başqaları - F.B.)* fikrincə, Naxçıvan diyarında e.ə. II minilliyin birinci yarısına aid qədim insanların yaşayış yerləri kimi, Həzrət Nuhun (ə) adı ilə bağlı toponimlər də vardır. Onlardan Nuhəcr, Nuhdabanı, Nuhyurt, Nuhçuxuru, Nuh-nus və sairə. Bundan başqa, Naxçıvanda Peyğəmbərin (ə) məzarüstü sərdabə qalıqları da dövrümüzədək qalmışdır.

Xalq arasında "İmamzadə" adı ilə tanınan Nuh türbəsi, ümumiyyətlə Naxçıvanın ən qədim abidələrindən biri hesab edilir *(Naxçıvan şəhərinin adı da Həzrət Nuh (ə.) peyğəmbərin adı ilə əlaqələndirillr - F.B.)*. Üstü soğanabənzər Nuh türbəsinin tikilmə tarixi dəqiq öyrənilməsə də, həmin tikilinin yanındakı İmamzadə binası XVIII əsrin 20-ci illərində inşa edilmişdir. 1920-ci illərdə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun haqqında məlumat verdiyi, lakin sonralar yerində olmayan ərəb dilində yazılmış daş kitabənin mətni bu tarixi dəqiqləşdirmək üçün əsas olmuşdur (2, s. 310). Həmin kitabənin ərəbcədən tərcüməsi belədir: "1722/32-ci illərdə bu imamzadə ərəb və əcəmin ixtiyar sahibi, səxavətli xaqan, möhtərəm əmir, ən böyük sultan, şah oğlu-şah Əbu Müzəffər Təhmasib Bahadur xanın hökmdarlığı dövründə günahları bağışlanmağa layiq mərhum Hacı Polad bəyin oğlu sahibkar, zəmanənin xeyirxahı olan Rufan bəyin əmri ilə tikilmişdir."

1975/77-ci illərdə görkəmli alim, akademik Ə.R.Salamzadə (1916-1983)



ilə memarlıq üzrə elmlər doktoru K.M.Məmmədzadə burada maraqlı tədqiqat işləri aparmışlar. Alimlər Naxçıvandakı Nuh türbəsinin tikilmə tarixini dəqiqləşdirə bilməsələr də, bu barədə ingilis, rus və Azərbaycan dillərində kitab yazmışlar (3).

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası N.V.Xanıkov İmamzadə türbəsinin Səfəvi şahı II Təhmasibin zamanında tikildiyini güman etmişdir. O, fikrini yuxarıda adıçəkilən sonradan götürülmüş daş kitabənin yazısına əsaslandırmışdır (4, s. 15).

Rus alimi V.M.Sisoyevin yazdığına görə, 1818-ci ildə Abbasqulu xanın vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin də məzarı orada olmuşdur (5, s.127).

XX əsrin 50-ci illərində binada təmir-bərpa işləri aparılarkən məzar yeri sökülmüş və oradakı daş kitabə də yerindən götürülmüşdür *(Keçən əsrin 50-ci illərinədək İmamzadə binası ətrafındakı Naxçıvan kəngərlilərinə məxsus məzarlar sökülərək bərbad edilmişdir - F.B.)*.

Yeni gətirilmiş və yazı hərfləri pozulan daş kitabənin ərəbcədən tərcümə-



si isə belədir: "Onun sahibi mərhum Kulkuta şahın qızı mərhumə günahları bağışlanmış xoşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba (nu) Şahbikə, fani dünyadan əbədi dünyaya köçdü. Doqquz yüz altıncı ildə" (miladi tarixilə 1500-cü il) (6, s. 9).

Nuh türbəsinin yaxınlığındakı təpəlikdə (şərq hissədə) "Nuhun qəbiri" adlı səkkizguşəli köhnə tikili olmuşdur *(Həmin tikilinin içərisində başdaşı ilə üstündə yazısı olmayan məzar var idi - F. B.).*

Tarixi "qəbir yeri"nin binası 1950-ci ildə şəhər qəbiristanı sahəsinin genişləndirilməsi bəhanəsilə sökülmüşdür. Məlumatlara görə, həmin qəbirüstü tikili VIII əsrdə ərəblər tərəfindən bərpa edilmişdir (7, s. 14-15).

Naxçıvanlı realist rəssam Bəhruz Kəngərli (1892-1922) həmin tikilinin üç tərəfdən şəklini çəkmişdir. Naturadan çəkilmiş "Nuhun qəbiri" adlı tablolar, hazırda Naxçıvandakı B.Kəngərli muzeyində saxlanılır (8).

Rus tədqiqatçısı K.A.Nikitin 1882-ci ildə Tiflisdə rus dilində nəşr olunan "Qafqaz ölkəsi və tayfaların təsviri üçün materiallar" adlı jurnalda "Naxçıvan mahalı və Naxçıvan şəhəri" sərlövhəli yazısında bu barədə deyir: "Dünya tufanından sonra Noy *(Həzrət Nuh (ə) peyğəmbər - F. B.)* Qafqazdakı Naxçıvan şəhərinin yerləşdiyi ərazilərdə məskunlaşmış və o, gəmidəkilərlə bərabər elə orada da qalmışdır. Sonradan Noyun məskunlaşdığı ərazilər "Nəh" adlanmışdır". Məqalə müəllifi yazır ki, Nuh peyğəmbər (ə) yerli əhaliyə ərazidəki təpəlikdən duz çıxarmağı öyrətmişdir. Naxçıvandakı duz mağarasında XIX əsrin axırlarında nəzarətçi işləyən İ.Beyer tərəfindən müəllifin təsvir etdiyi alətlər - daş baltalar tapılmışdır. Beyer tapdığı qədim alətlərdən ikisini şəhərdəki Rus-tatar məktəbinə vermiş, qalanlarını isə Tiflis və Sankt-Peterburqdakı muzeylərə göndərmişdir. Həmin baltalardan biri 1925-ci ildə Naxçıvan şəhər sakini mülkədar Balabəy Əlibəyovun (1855-1930) şəxsi evindəki ölkəşünaslıq muzeyində saxlanılmışdır (9, s. 13).

"Naxçıvan" sözü əslində *"Nuh yaşayan yer"* kimi tərcümə edilir. Bu, sözün mənşəyinin Ulu Peyğəmbərlə (ə) bağlı olduğuna ən böyük sübutdur. Zənnimizcə, bundan tutarlı dəlil söyləmək və

ya buna qarşı hər hansı arqument qoymaq cəfəngiyatdır. Naxçıvanlı realist rəssam B. Kəngərlinin çəkdiyi "Nuhun qəbiri" tablosunda, məhz Naxçıvan şəhərinin qədimliyindən xəbər verilir. İstər Həzrət Nuhun (ə) Dünya tufanından sonrakı həyatı, istərsə də məzar türbəsinin Naxçıvanda olması həqiqətə uyğun gəlir. Lakin tarix boyu bu ərazidə baş verən müharibələr əhalinin didərgin düşməsilə yanaşı, müqəddəs inanc yerlərinin də uçurularaq məhv edilməsinə və tarixin yaddaşından silinməsinə səbəb olmuşdur.

Gürcü arxeoloqu, Sankt-Peterburq EA-nın müxbir üzvü V.V.Qriqoriyev (1816-1881), Tiflis şəhərindəki arxiv sənədlərinə əsasən, Həzrət Nuh (Noy) (ə) və arvadı Əmirənin (Namanın) qəbirlərinin Naxçıvan (Araz üstə) şəhərinin cənub qurtaracağında *("Köhnə qala"nın yanında - F.B.)* olduğunu bildirir (10).

Tarixçilərin fikrincə, dünya tufanından sonra Həzrət Nuh (ə) arvadı Əmirə və kiçik oğlu Yafəslə bərabər indiki Naxçıvan ərazisinə gəlib yaşamış və onların vəfatından yüz il sonra *(ömrünün 950-ci yaşında - F.B.)* dünyadan köçmüşdür.

Ərəb coğrafiyaşünası əl-Əşrəfinin fikrincə, Həzrət Nuhun (ə) gəmisi müqəddəs Quranda adıçəkilən Cudidə *(ərəbcə yüksək yer olan Ağrı dağında - F.B.)*, özü ilə arvadının qəbirləri isə (Nəşəvidə) Naxçıvandadır.

Erməni tarixçisi V.Camçıyan və türkoloq Murad Acı da Nuh peyğəmbər (ə) və arvadı Namanın qəbirlərinin indiki Naxçıvan ərazisində olmasını bildirmişdir (11).

Keçən əsrin 60-cı illərində Naxçıvan şəhərinin şimal-qərb hissəsindəki indiki İslam Səfərli küçəsində torpaq qazılarkən içərisində qadın olan daş sənduqə aşkarlanmışdır. Həmin tarixi tapıntı qədim dövrlərin yadigarı kimi, Sankt-Peterburqdakı Ermitaj muzeyinə aparılmış və bununla bağlı yerli mətbuatda "Yatmış gözəlin sirri" sərlövhəli elmi məqalə dərc olunmuşdur (11; 12; 13; 14).

Maraqlıdır ki, 2010-cu ilin aprelində Türkiyə və Çin tədqiqatçıları, Ağrı dağın 4 min metr hündürlüyündə Həzrət Nuhun (ə) gəmisinin tapıldığını elan etdilər.

Türkiyədə mətbuat konfransı keçirən alimlər bildirdilər ki, gəmidən götürülmüş materialların analizi onun təxminən 4800 il əvvələ aid olduğunu sübut edir. Alimlər bununla da, tapıntıların 99,9 faiz Həzrət Nuhun (ə) gəmisinə aid olduğuna əminliklərini bildirdilər.

İndiyədək dünyanın ayrı-ayrı yerlərində bu gəminin tapıldığı bildirilsə də, əksər tədqiqatçılar onun Ağrı dağda olduğunu güman etmişlər (15).

Yuxarıda göstərdiyimiz və müxtəlif mənbələrə əsaslanan faktlar Həzrət Nuhun (ə) məzarının Naxçıvan ərazisində olmasını təsdiq edir. Naxçıvandakı bərpa olunmuş Nuh türbəsinin İslam dünyasının müqəddəs məkanlarından biri kimi dünyaya tanıdılmasına ehtiyac vardır. Son illərdə dini turizmin inkişafı ilə əlaqədar həmin abidənin də dini turizm abidələri siyahısına daxil

edilməsi Azərbaycanın qədim abidələr diyarı olmasını dünyaya göstərmək üçün uğurlu addımdır.

Bununla yanaşı, dünya tufanı, Həzrət Nuhun (ə) quruya enməsi, harada yaşaması və bunların Naxçıvanla əlaqəsi ciddi aktuallıq daşıyan elmi tədqiqat istiqamətidir. Bu tədqiqatlar 20-dən artıq kitab və monoqrafiya, çoxsaylı elmi məqalələrdə əks olunmuşdur. Naxçıvan şəhərinin tarixi arxeoloji abidələri (qədim Naxçıvan şəhəri, Antik Naxçıvan nekropolu və Orta əsr Naxçıvan nekropolu) Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyində qeydiyyata alınmışdır. Qeyd edək ki, hələ 1999-cu ildə Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpası fondu yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra, respublika ərazisində mövcud olan 788 yeni tarixi abidə tədqiq edilərək təsdiq olunmuş və bütövlükdə 1165 abidə Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyi tərəfindən pasportlaşdırılmışdır (16; 17).

Naxçıvan MR Ali Məclisinin "Nuh peyqəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 28 iyun 2006-cı il tarixli Sərəncamı ilə sovetlər dövründə vəhşiliklə sökülən Peyğəmbərin (ə) məzarüstü türbəsi AMEA-nın Naxçıvan Bölməsinin etnoqraf alimlərinin iştirakı ilə yenidən bərpa edilmiş, ən müqəddəs ərmağan kimi xalqımıza qaytarılmışdır (18; 9). Bu tədqiqatların aktuallığına əsasən, Naxçıvan şəhərində 2009-cu ildə "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilmişdir.

Məlumdur ki, İslam Konfransı Təşkilatının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) İslam sivilizasiyasının formalaşmasında və inkişafında, həmçinin İslamın intibah dövründə elm və mədəniyyət mərkəzi olmuş şəhərlərin irsinin qorunması, onların təbliği məqsədilə "İslam Mədəniyyətinin Paytaxtları" adlı layihə həyata keçirilir. Ərəb, Asiya və Afrika regionlarından hər il bir şəhər İslam Mədəniyyətinin Paytaxtı elan olunur (19, s.10-12). İslam Mədəniyyətinin Paytaxtı statusunu alan şəhər zəngin tarixi keçmişə malik, həm İslam, həm də bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsindəki töhfələrinə görə xüsusi yerlərdən birini tutmalıdır. Daha sonra arxeoloji təhsil və elmi tədqiqat mərkəzləri, zəngin və qədim əlyazmaları qorunan kitabxanaları, həmçinin beynəlxalq tədbirlərin keçirilməsi üçün mədəniyyət qurumlarına malik olmalıdır. İslam ölkələri mədəniyyət nazirlərinin həmin il üçün İslam konfransı, üç İslam Mədəniyyət Paytaxtlarından birində keçirilir. İslam Mədəniyyəti Paytaxtı statusu verilmiş şəhərlərin bu mövzuya həsr olunmuş fərdi internet saytları fəaliyyət göstərir. Bu layihə və tədbirlər həm də ölkələrin bir-birinin mədəniyyəti ilə tanışlığı üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycan şəhərlərindən ilk olaraq Bakı İslam Mədəniyyətinin Paytaxtı

statusuna layiq görülmüşdür (20, s.50-56).

Mədəniyyət nazirlərinin VI İslam Konfransında isə (2009, Bakı) Naxçıvan şəhəri 2018-ci il üçün Asiya qitəsindən İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir.

Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsilə əlaqədar bir sıra beynəlxalq tədbirlərin bu şəhərdə keçirilməsi məqsədəuyğundur. Dövri mətbuatda Naxçıvanın elm və mədəniyyət tarixi, Azərbaycan dövlətçiliyində rolu barədə elmi məqalələrin nəşrinə diqqət artırılmalı və qədim diyarın tarixi, arxeoloji abidələri dünya və İslam ölkələrində təbliğ olunmalıdır.

ƏDƏBİYYAT

1. *Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004.*
2. *Азимбеков И. Мусульманские надписи Нахичевана. Баку, 1929.*
3. *Salamzadə Ə. Arazboyu abidələr. Bakı, 1979.*
4. *AMEA-nın Tarix və Etnoqrafiya İnstitutunun Elmi Arxivi. İnv. № 1076. s. 15.*
5. *Сысоев В.М. Нахичевань на Аракce в Нах. ССР. Баку, 1929.*
6. *Səfərli F. Naxçıvan ziyarətgahları. Bakı, 1998.*
7. *Bağırov F. Nuh yurduna ziyarət. Bakı, 2008, s. 220.*
8. *"Bəhruz Kəngərli", Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2005, s. 80.*
9. *Bağırov F. Tarixin yaddaşı. Bakı, 2009, s. 420.*
10. *Григориев В. В. Россия и Азия, С. Петербург, 1876.*
11. *"Şərq qapısı" qəzeti. "Nuhun gəmisi harayacan üzübmüş?". Aprel, 1960; 27 aprel 2010, № 74.*
12. *Baxşəliyev V. Naxçıvanın qədim yazı nümunələri haqqında. Bakı, 1999.*
13. *Müseyibov N. Gəmiqaya rəsmləri. Bakı, 2002.*
14. *Səfərov Y. Bir əfsanənin mənşəyi. "Azərbaycan",1966, № 3.*
15. *"Nuhun gəmisi tapıldı", 7 aprel 2010 // www.milli.az*
16. *"Naxçıvan Abidələri Ensiklopediyası". Bakı, 2008.*
17. *"Naxçıvan MR Tarixi və Arxeoloji Abidələr haqqında məlumat kitabı". Naxçıvan, 2009.*
18. *Qədirzadə Q. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan. Naxçıvan, 2008.*
19. *Quliyeva S. "İslam Mədəniyyətinin Paytaxtları" layihəsi barədə". s.10-12 // Bakı İslam mədəniyyətinin paytaxtıdır - 2009. Beynəlxalq konfransın tezisləri. Milli Azərbaycan Tarixi Muzeyi, 9-10 noyabr. "Elm və Təhsil", 2009, s. 168.*
20. *Quliyeva S. "İSESKO və Azərbaycan əlaqələri barədə". s. 50-56 // "Dövlət və Din". İctimai-fikir toplusu. Fevral, 2009, 1 (9). s. 255.*

Фейруз Багиров

Нахичеван как один из центров науки и культуры исламской цивилизации

РЕЗЮМЕ

Нахичеван - один из древнейших городов Азербайджана, занимает особое место в Исламской цивилизации. Важное экономическое, политическое и культурное значение этого города связано с его стратегическим расположением.

История Всемирного потопа, появление пророка Ноя на Земле и место его обитания, а также связь выше перечисленных реалий с историей Нахичевана и является одной из актуальных научно-исследовательских направлений мирового масштаба, и в частности Исламского мира. Исследованиями азербайджанских ученых установлено что, могила пророка Ноя находится на территории Нахичевана. Существование различных версии мифа о всемирном потопе в Нахичеване, преобладание топонимов связанных с пророком Ноем на этой территории также подтверждают этот факт.

Существует большая потребность в объединении усилий азербайджанских ученых и ученых всего мира в направлении исследования исторической действительности эпохи пророка Ноя и всемирного признания наличия гробницы пророка Ноя на территории Нахичевана.

Выбор города Нахичеван как столицы Исламской культуры в 2018 году связан с особой ролью этого города в формировании и развитии исламской культуры, с наличием многочисленных памятников культуры Исламской религии на этой земле.

Feyruz Bagirov

Nakchivan as one of the scentific and cultural center of Islamic civilization

SUMMARY

Nakchivan - one of the ancient settlements of Azerbaijan plays an important role İslamic civilization. İt's concerns with to the economic, political and cultural position of the city. The one of the features, which increases the oldness and importance of the city, is its relation with the prophet Nuh as well.

Word storm, the arrival of the prophet Nuh to the land, his life this city, the impacts of these evident and their relations with Nakchivan are very essential facts as well as important direction of research. The investigations of Azerbaijan scientists proved that, the prophet Nosh's grave takes place namely, in Nakchivan. The spread of legends about world flood and the names of places related to the prophet Nuh prophet it again.

It's important to introduce the tomb of the prophet Nuh to the world and to clear up the historical facts about him with often scientists.

The selection of Nakchivan as the scientific and cultural center of Islamic civilization in 2018 is related to its role in formation and development of Islamic civilization, the existence of a numeral monuments concerned to Islam.

According to all these evident, it's essential to be attentive in agitation of the history and culture of Azerbaijan in Islamic world specially.